# “İnsanlara iddialarına görə istədikləri verilsəydi, insanlar başqalarının malını və qanını tələb edərdilər, lakin dəlil iddia edənin, and isə inkar edənin üzərinə vacibdir”

İbn Abbasdan (Allah ondan və atasından razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Əgər insanların istədikləri onlara iddialarına görə verilmiş olsaydı, o zaman onların bir qismi digərlərinin qanını və malını iddia etmiş olardı. Lakin iddia edən şəxs dəlil-sübut gətirməli, bu iddianı inkar edən şəxs isə and içməlidir”.
[Həsən] [رواه البيهقي وغيره هكذا وبعضه في الصحيحين]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) açıq-aydın bildirmişdir ki, əgər insanlara dəlil və sübut olmadan sadəcə iddiaları əsasında (istədikləri) verilsə idi, onlar başqalarının malını və qanını tələb edərdilər, lakin iddiaçıya tələb etdiyi şey üçün dəlil və sübut təqdim etməsi vacibdir. Əgər tələb etdiyi şeyə dəlil və sübutu yoxdursa, o zaman iddia, cavabdeh qismində olan şəxsə təqdim edilir. Əgər o, bunu inkar edərsə, o zaman and içməlidir və bununla da o, bəraət qazanar.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee